

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** ***Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 50 (22.961)

*15 mart 2018-ci il, cümə axşamı*

***Gündəlik ictimai-siyasi qəzet***

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 14-də Türkiyə Respublikasının Baş naziri Binəli Yıldırım ilə görüşüb.

Görüşdə Prezident İlham Əliyev deyib ki, biz dostuq, qardaşıq, bütün məsələlərdə bir-birimizin yanındayıq, bir-birimizi dəstəkləyirik. Bu, bu gün belədir və həmişə də belə olacaq. Bizi çox dərin əlaqələr bağlayır. Siyasi əlaqələrimiz ən yüksək zirvədədir, iqtisadi sahədə yaxşı nəticələr var. Türkiyə Azərbaycana və Azərbaycan Türkiyəyə 10 milyard dollardan çox sərmayə qoyub.

Baş nazir Binəli Yıldırım qeyd edib ki, Türkiyə və Azərbaycan bir millət, iki dövlətdir. Ölkələrimiz arasındakı münasibətlər gündən-günə daha da inkişaf edir. Həm Türkiyədə, həm də Azərbaycanda qarşılıqlı investisiyalarımız, ticarətimiz artır, turizm sahəsində əməkdaşlığımız inkişaf edir.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 14-də VI Qlobal Bakı Forumunun işində iştirak edən Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədrləri xanım Vayra Vike-Freyberqanı və İsmail Serageldini, keçmiş dövlət və hökumət başçılarını, Mərkəzin İdarə Heyətinin üzvlərini qəbul edib.

## Prezident seçkilərinə hazırlıqla əlaqədar seminar-treninqlər keçirilib



***11 aprel 2018-ci ildə keçiriləcək Azərbaycan Respublikası Prezidenti seçkilərinə hazırlıqla əlaqədar olaraq muxtar respublikada fəaliyyət göstərən seçki dairələrinin dairə seçki komissiyalarında məntəqə seçki komissiyalarının üzvləri üçün təşkil olunmuş seminar-treninqlər davam etdirilir.***

3 saylı Babək-Kəngərli-Naxçıvan Dairə Seçki Komissiyasının iclas zalında keçirilmiş seminar-treninqi giriş sözü ilə açan komissiyanın sədri Zahid Ələkbərov seçki məntəqələrinin səsverməyə hazırlanması barədə məlumat verib. Bildirib ki, seçki məntəqələrində səsvermə kabinələri və müvafiq məlumat lövhələri düzəldilməli, səsvermə qaydasına dair təlimat plakatları divara vurulmalı, səsvermə üçün zəruri olan material və avadanlıqlar yerləşdirilməlidir.

Dairə seçki komissiyasının sədri çıxışında vurğulayıb ki, səsvermə başlanmazdan əvvəl məntəqə seçki komissiyasının üzvləri seçki bülletenlərini saymalı, onların hər birinin möhürləndiyini yoxlamalıdır. Səsvermə günü səhər saat $7^{50}$-də məntəqə seçki komissiyasının sədri seçki məntəqəsini açıq elan etməli, boş seçki qutularını seçki komissiyasının üzvlərinə, seçki məntəqəsində olan müşahidəçilərə göstərməli, onları bağlamalı, fərdi nömrələnmiş və təhlükəsizlik üçün nəzərdə tutulmuş birdəfəlik plastik kilidlərlə kilidləməlidir. Bu nömrələr müvafiq aktda qeyd olunmalıdır.

Qeyd edilib ki, gözəgörünməyən mürəkkəb və ultrabənövşəyi lampalar da seçki məntəqəsi açılmazdan əvvəl müşahidəçilərin müşahidəsi ilə yoxlanılmalıdır. Daha sonra dairə seçki komissiyasının sədri səsvermə günü səsvermə otağında kimlərin ola biləcəyi və zəruri hallarda seçki məntəqəsinə kimlərin dəvət oluna biləcəyi barədə ətraflı məlumat verib.

Daha sonra çıxış edən dairə seçki komissiyasının katibi Şəmil Əliyev səsvermə prosesi haqqında məlumat verərək bildirib ki, məntəqə seçki komissiyasının sədri komissiya üzvləri arasında iş bölgüsü apararkən qanunvericiliyin tələblərini gözləməlidir. Səsvermənin başlandığı elan olunduqdan sonra məntəqə seçki komissiyasının bir üzvü seçki məntəqəsinin girişində dayanaraq məntəqəyə daxil olan vətəndaşların seçici vəsiqələrini, şəxsiyyət vəsiqələrini və ya şəxsiyyəti təsdiq edən digər sənədləri, onun sol əlinin baş barmağının dırnaq və dərisinin bir hissəsinin əvvəlcə xüsusi maye ilə işarələndiyini müəyyən etmək üçün ultrabənövşəyi lampadan istifadə etməklə yoxlamalı və içəri daxil olmağa icazə verməlidir. Bu cür işarələnmə müəyyən edilərsə, seçiciyə seçki bülleteni verilmir. Məntəqə seçki komissiyasının digər üzvü seçicinin adının seçici siyahısında olduğunu yoxlayıb ona seçki bülleteni verməlidir. Seçici barmağının işarələnməsindən imtina etdiyi təqdirdə ona seçki bülleteni verilməyəcəyi həmin komissiya üzvü tərəfindən izah olunmalıdır. Seçici bununla razılaşmadığı halda ondan seçki məntəqəsini tərk etmək tələb edilməlidir.

Seminar-treninqdə çıxış edən dairə seçki komissiyasının böyük məsləhətçisi Səfər Hüseynov səslərin sayılması və protokolların doldurulması barədə məlumat verərək bildirib ki, səslərin sayılmasını yalnız məntəqə seçki komissiyasının həlledici səs hüquqlu üzvləri birbaşa həyata keçirirlər. Səslərin hesablanması üçün münasib şəraitin yaradılmasından ötrü lazım olmayan materiallar və avadanlıqlar bir tərəfə yığılmalı, zəruri olan bütün sənədlər və əşyalar masaya gətirilməli, səslərin hesablanması və protokolun doldurulmasının mərhələləri haqqında komissiya üzvləri ətraflı məlumatlandırılmalıdır.

* * *



7 saylı Ordubad-Culfa Dairə Seçki Komissiyasında keçirilən seminar-treninqdə komissiyanın sədri Həsən Həsənov seçki prosesi, seçicinin və məntəqə seçki komissiyası sədrinin hüquq və vəzifələrindən bəhs edərək bildirib ki, səsvermə başa çatdıqdan sonra əvvəlcə qaralama protokol yazılır.

Protokolun qaralama nüsxəsi doldurulub yoxlandıqdan sonra karbonlaşdırılmış protokol düzgün, səliqəli tərtib edilərək digər seçki sənədləri ilə birlikdə dairə seçki komissiyasına təqdim edilməlidir.

Tədbirin sonunda Həsən Həsənov əminliyini bildirib ki, 7 saylı Ordubad-Culfa Dairə Seçki Komissiyası və onun ərazisində olan məntəqə seçki komissiyaları əvvəlki seçkilərdə olduğu kimi qarşıdan gələn prezident seçkilərinin də Seçki Məcəlləsinin tələblərinə uyğun olaraq keçirilməsi təmin ediləcək, seçki prosesində şəffaflıq qorunub saxlanılacaq.

* * *



6 saylı Culfa-Babək Dairə Seçki Komissiyasında keçirilən seminar-treninqdə komissiyanın sədri Əzim Əzimov çıxış edərək seçkilər günü məntəqə seçki komissiyalarında səsvermənin təşkili və səsvermə prosesi başa çatdıqdan sonra məntəqə seçki komissiyalarının üzərinə düşən vəzifələrdən danışıb. O, seçkilərin mütəşəkkil və demokratik şəkildə keçirilməsi, seçici hüquq və imtiyazlarının qorunması, seçki bülletenini sərbəst almaq və yazıb doldurmaq imkanı olmayan fiziki imkanları məhdud şəxslərin səsvermədə iştirak etməsinə qanunauyğun şəkildə köməklik göstərilməsi, daşınan seçki qutularından istifadə, səsvermə günü qanun-qaydalara riayət olunması və ictimai asayişin qorunması məqsədilə qarşıda duran vəzifələrdən danışıb.

Dairə seçki komissiyasının böyük məsləhətçisi Bəhlul Haqverdiyev yerli və beynəlxalq müşahidəçilərin, səlahiyyətli nümayəndələrin, qeydiyyatdan keçmiş kütləvi informasiya vasitələri təmsilçilərinin seçkilərdə iştirakı, səlahiyyətləri barədə tədbir iştirakçılarına ətraflı məlumat verib. Dairə seçki komissiyasının üzvü Babək Məmmədov səslərin hesablanması, hansı hallarda seçki bülletenlərinin etibarsız sayılacağı və yekun protokolun doldurulması ilə bağlı məlumatları diqqətə çatdırıb.

## Heydər Əliyev lektoriyasının növbəti məşğələsi olub



Naxçıvan Muxtar Respublikası Dövlət Baytarlıq Xidmətində "Heydər Əliyev – Azərbaycanın müstəqillik tarixinin müəllifi, xalqımızın xilaskarı və qurucusu" mövzusunda keçirilən lektoriyanı xidmətin rəisi Əbil Əbilov açıb. Bildirilib ki, XX əsr Azərbaycan tarixinin ən parlaq siması olan ulu öndər Heydər Əliyev elə şəxsiyyətlərdəndir ki, keçdiyi həyat yoluna nəzər yetirdikdə bütöv bir xalqın dünəni, bu günü və sabahı aydın görünür.

Tədbirdə AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun şöbə müdiri, AMEA-nın müxbir üzvü Vəli Baxşəliyevin, Naxçıvan Dövlət Universiteti Təbiətşünaslıq və kənd təsərrüfatı fakültəsinin Kimya kafedrasının müdiri, AMEA-nın müxbir üzvü Tofiq Əliyevin çıxışları dinlənilib. Çıxışlarda ümummilli liderimiz Heydər Əliyevin Azərbaycana rəhbərliyi dövründə respublikamızda hüquqi-siyasi və sosial-iqtisadi inkişaf, vətəndaş cəmiyyəti quruculuğu, cəmiyyət həyatının müxtəlif sahələrinin tərəqqisi istiqamətində aparılan islahatlardan danışılıb.

Bildirilib ki, dahi şəxsiyyət ali dövlət vəzifələrində olmadığı dövrlərdə belə, xalqımız qarşısında xidmətlərini davam etdirib. Həyatını təhlükə qarşısında qoyaraq 1990-cı ilin Qanlı Yanvar faciəsini törədənləri kəskin ittiham edib. Moskvadan Naxçıvana gəlməsi, 1991-ci il sentyabrın 3-də muxtar respublika əhalisinin təkidli tələbi ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilməsi Naxçıvanı siyasi oyunlardan və erməni işğalından xilas edib. Dahi rəhbərin müəyyənləşdirdiyi siyasət bu gün ölkəmizdə və onun ayrılmaz tərkib hissəsi olan muxtar respublikamızda uğurla davam etdirilir.

Sonda ümummilli liderin həyatı və siyasi fəaliyyəti haqqında sənədli film nümayiş etdirilib.

## Biznes Mərkəzində seminar təşkil edilib



Naxçıvan Biznes Mərkəzində əmək müqaviləsi üzrə elektron informasiya sisteminin təqdimatı və sistemdən istifadəyə dair işəgötürənlər və müəssisələrin kadr məsələləri üzrə mütəxəssisləri üçün seminar təşkil olunub.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin aparat rəhbəri Əziz Hümbətov çıxış edərək bildirib ki, ölkəmizdə işəgötürən-işçi münasibətlərinin rəsmiləşdirilməsi ilə bağlı nəzarət mexanizmlərinin təkmilləşdirilməsi məqsədilə "Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2013-cü il 27 dekabr tarixli Qanununa əsasən Əmək Məcəlləsinə "əmək müqaviləsi bildirişi" anlayışı daxil edilib.

Qeyd olunub ki, həmin bildiriş elektron informasiya sisteminə daxil edilməsi Naxçıvan Muxtar Respublikasının Rabitə və Yeni Texnologiyalar Nazirliyi tərəfindən işəgötürənə verilən gücləndirilmiş elektron imza vasitəsilə həyata keçirilir.

Vurğulanıb ki, işəgötürən və işçi arasında əmək münasibətinin rəsmiləşdirilməsi əmək müqaviləsinin bağlanılması, ona dəyişiklik edilməsi və ya xitam verilməsi əmək müqaviləsi bildirişinin elektron informasiya sistemində qeydiyyata alınmasından və bu barədə işəgötürənə elektron qaydada məlumat göndərilməsindən sonra hüquqi qüvvəyə minir.

Əmək Müqaviləsi Bildirişi üzrə Elektron İnformasiya Sistemi Naxçıvan Muxtar Respublikası Elektron Hökumət Portalında Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin xidmətlər bölməsinə əlavə edilib. İşəgötürən və işçilərin əmək müqaviləsi bildirişi üzrə elektron informasiya sistemindən istifadəsinə köməklik məqsədilə Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində 255 nömrəli qaynar xətt yaradılıb.

Seminarda əmək müqaviləsi üzrə elektron informasiya sistemi barədə Naxçıvan Televiziyasının hazırladığı videoçarx nümayiş olunub.

Sonra Dövlət Əmək Müfəttişliyi Xidmətinin rəisi Elnar Hüseynov elektron informasiya sisteminin iş prinsipi, "Naxçıvanpoçt" Məhdud Məsuliyyətli Cəmiyyətinin mütəxəssisi Rəşad Süleymanov isə elektron imzadan istifadə qaydaları barədə seminar iştirakçılarına slaydların müşayiəti ilə məlumat veriblər.

Sonda suallar cavablandırılıb, iştirakçılara maarifləndirici bukletlər təqdim edilib.

**Xəbərlər şöbəsi**

*15 mart Ümumdünya İstehlakçı Hüquqlarının Müdafiəsi Günüdür*

# Muxtar respublikada istehlakçıların hüquqlarının müdafiəsi qarşıya qoyulmuş mühüm vəzifələrdəndir

***15 mart 1962-ci ildə ABŞ-da “İstehlakçıların hüquqlarının müdafiəsinə dair Bəyanat” qəbul edilmişdir. Hazırda bütün dünyada “İstehlakçıların hüquqlarının müdafiəsinə dair Bəyanat”ın qəbul olunduğu gün – martın 15-i Ümumdünya İstehlakçı Hüquqlarının Müdafiəsi Günü kimi qeyd olunur.***

İstehlakçıların hüquqlarının müdafiəsi sahəsində dövlət siyasətinin əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulmuşdur. Məhz ulu öndərimizin təşəbbüsü ilə 1995-ci il sentyabrın 19-da “İstehlakçıların hüquqlarının müdafiəsi haqqında” Azərbaycan Respublikasının Qanunu qəbul olunmuş, bu sahədə hüquqi bazanın tam şəkildə formalaşdırılması istiqamətində məqsədyönlü və ardıcıl işlər həyata keçirilmişdir. Ötən müddətdə istehlakçıların hüquqlarının müdafiəsi ilə bağlı bir sıra normativ-hüquqi aktlar da qəbul edilmiş, qanunvericilik bazası möhkəmləndirilmişdir. Hazırda ölkəmizdə bütün sahələrdə keyfiyyət göstəricilərinin beynəlxalq standartlara uyğunlaşdırılması istiqamətində ciddi tədbirlər görülür. Bu gün Azərbaycanda daxili bazarın formalaşdırılması və istehlakçı hüquqlarının qorunması istiqamətində qarşıya qoyulan əsas vəzifə əhalinin istehlak mallarına olan tələbatını maksimum səviyyədə yerli istehsal hesabına yüksəkkeyfiyyətli məhsullarla təmin etməkdən ibarətdir.

İqtisadiyyatın bütün sahələrində müşahidə olunan inkişaf meyilləri istehlakçıların hüquqlarının qorunması sahəsində də səylərin artırılmasını, bununla bağlı beynəlxalq təcrübənin öyrənilməsini, aidiyyəti dövlət orqanları, sahibkarlıq subyektləri və istehlakçılar arasında qarşılıqlı əlaqələrin genişləndirilməsini tələb edir. Məhz bu səbəbdən son dövrlər istehlakçıların hüquqlarının müdafiəsi aktuallıq kəsb edən məsələlərdən birinə çevrilmiş və hər bir istehlakçı öz hüquqlarının müdafiəsinə daha çox əhəmiyyət verməyə başlamışdır.

Muxtar respublikada iqtisadi inkişafın səmərəliliyinin artırılmasında keyfiyyət əsas meyar kimi qəbul olunur. Buna görə də daxili bazarın və istehlakçıların hüquq və mənafelərinin qorunması istiqamətində təsərrüfat subyektlərində istehsal edilən və idxal olunan məhsulların keyfiyyətinə dövlət nəzarəti işi hər zaman diqqət mərkəzində saxlanılır. Həyata keçirilmiş nəzarət tədbirlərinin təhlili istehlak bazarında əsaslı keyfiyyət dəyişikliklərinin müşahidə edildiyini göstərir. Belə ki, sahibkarların öz öhdəliklərinə daha məsuliyyətlə və istehlakçıların hüquqlarına hörmətlə yanaşması əldə olunan başlıca uğur kimi dəyərləndirilə bilər. Hazırda qarşıda duran əsas vəzifə istehlakçıların hüquqlarının müdafiəsi, əmtəə bazarlarının keyfiyyətsiz və sağlamlıq üçün təhlükəli məhsullardan qorunması məqsədilə işlərin daha da gücləndirilməsi və bu sahədə zəruri tədbirlərin görülməsindən ibarətdir. Bunun üçün istehlak bazarında mütəmadi monitorinqlər aparılır, keyfiyyətin kompleks yoxlanılması və qanun pozuntusuna şərait yarada bilən halların aradan qaldırılması, malların keyfiyyət və təhlükəsizlik göstəriciləri üzrə laborator müayinələrin aparılması, nəticələrə uyğun olaraq operativ tədbirlərin görülməsi həyata keçirilir. 2017-ci ildə istehlakçıların hüquqlarının qorunması məqsədilə 385 halda istehsal, ticarət, ictimai iaşə, məişət və digər növ xidmət obyektində nəzarət aparılmış, 6442 manat dəyərində istehlak müddəti bitmiş məhsullar ticarət dövriyyəsindən çıxarılmış, sahibkarlıq subyektləri barəsində qanunvericiliyə uyğun tədbirlər görülmüşdür.

Ötən il istehlakçıların hüquqlarının daha etibarlı müdafiəsi baxımından mühüm əhəmiyyət kəsb edən maarifləndirmə tədbirləri intensiv xarakter almış, bu istiqamətdə bir sıra işlər görülmüşdür.

Ərzaq mallarının keyfiyyət və təhlükəsizlik göstəricilərinin qiymətləndirilməsi də diqqət mərkəzində saxlanılmışdır. Belə ki, ötən il ərzaq mallarının keyfiyyət və təhlükəsizlik göstəricilərinin qiymətləndirilməsi ilə bağlı 1640 səyyar və 2136 halda mal nümunəsi laboratoriya analizindən keçirilmişdir. Müayinə aparılmış mallar, əsasən, taxıl emalı məhsulları, unlu-qənnadı məmulatları, süd və süd məhsulları, konservlər, ət və ət məhsulları, meyvə-tərəvəz, mineral sular və sərinləşdirici içkilər, tamlı məhsullar, yağlar və digər məhsullar olmuşdur. Müayinə nəticəsində 18 halda malların keyfiyyət və təhlükəsizlik göstəricilərinin normativ-texniki sənədlərin tələblərinə uyğun olmadığı müəyyən edilmiş və bununla bağlı müvafiq tədbirlər görülmüşdür.

İstehlakçıların hüquqlarının qorunması istiqamətində həyata keçirilən tədbirlərdən biri də süni qiymət artımının qarşısının alınmasıdır. Belə ki, əhali tərəfindən daha çox istehlak olunan malların, həmçinin ərzaq malları, tikinti materialları və tərəvəz məhsullarının orta bazar qiymətlərinin səviyyəsi, dinamikası və dəyişmə meyilləri barədə məlumatların toplanılması və təhlili məqsədilə monitorinqlər davam etdirilmiş, ötən il 3437 adda, o cümlədən 1728 adda ərzaq və 1709 adda qeyri-ərzaq məhsullarının topdan və pərakəndə satış qiymətləri nəzarətdə saxlanılmış, məhsulların qiymətlərində müşahidə olunan artım səbəbləri araşdırılmış və əvvəlki səviyyədə saxlanılmasına nail olunmuşdur.

Daxili bazarda qiymət intizamına nəzarətin gücləndirilməsi məqsədilə aidiyyəti mərkəzi icra hakimiyyəti orqanlarının əməkdaşları ilə birlikdə həftədə bir dəfə olmaqla daxili bazarda əsas istehlak mallarının pərakəndə satış qiymətlərinin monitorinqi həyata keçirilmiş, müəyyən olunmuş qiymətlərin keçən ilin və keçən ayın müvafiq dövrlərində mövcud olmuş pərakəndə satış qiymətləri ilə müqayisəli təhlilləri aparılmışdır.

Mövsümi qiymət artımının qarşısının alınmasında, əhalinin fasiləsiz olaraq keyfiyyətli kənd təsərrüfatı məhsullarına olan tələbatının ödənilməsində soyuducu anbarların və istixana komplekslərinin də rolu böyükdür. Bu məqsədlə muxtar respublikada son illər ərzində ümumi tutumu 14 min 30 ton olan 31 soyuducu anbar istifadəyə verilmiş, ümumi sahəsi 128 min kvadratmetrdən artıq olan 21 istixana kompleksi yaradılmışdır. İstixana komplekslərində zəruri tərəvəz məhsullarının yetişdirilməsi bir tərəfdən əhalini keyfiyyətli məhsullarla təmin edirsə, digər tərəfdən bu məhsulların münasib qiymətlərlə satışına şərait yaradır. 2017-ci ildə muxtar respublikada payız-qış mövsümünə hazırlıqla bağlı görülən tədbirlər çərçivəsində kənd təsərrüfatı istehsalçılarının tələbatdan artıq istehsal etdikləri 5460 tondan çox məhsul anbarlara tədarük olunmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığına əsasən kənd təsərrüfatı istehsalçılarının fəaliyyətinin stimullaşdırılması, əhalinin tələbatının daha dolğun ödənilməsi, süni qiymət artımının qarşısının alınması məqsədilə Mərkəzi bazarda kənd təsərrüfatı məhsullarının və emal sənayesi məhsullarının satışı yarmarkası təşkil olunur. Ötən il yarmarkada 2772 ton məhsul 25 faiz ucuz qiymətlərlə əhaliyə satılıb.

*Bu gün muxtar respublikada istehlakçıların hüquqları etibarlı şəkildə qorunur. Ancaq istehlakçıların hüquqlarının qorunması yalnız dövlətin işi deyil. Bu, daha çox ümumxalq işidir. Bizim hər birimiz istehlakçı kimi öz hüquqlarımızı yaxşı bilməli və bu işə öz töhfəmizi verməliyik.*

**Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidməti**

*Müasirləşən yaşayış məntəqələrimiz*

# Badamlı qəsəbəsinin yeni növrağı

***Dağlar qoynunda yerləşən Şahbuz rayonunun geniş quruculuq işlərindən bəhrələnən yaşayış məntəqələrindən biri də Badamlı qəsəbəsidir. Qəsəbə rayon mərkəzindən 12 kilometr cənub-qərbdə yerləşir, ərazisi 137 hektardır. Burada 561 sakin 170 təsərrüfatda birləşir. Son illər qəsəbədə müasir məktəb, kənd və ticarət mərkəzləri üçün yeni binalar inşa olunmuş, ötən il 6 yaşayış binası əsaslı təmir edilmiş, yollarına asfalt salınmışdır.***

### *Şəfqətli suyun sorağına gələnlər*

Badamlı qəsəbə sakini, 38 il “Badamlı” zavodunda çalışan 72 yaşlı Allahverdi Məmmədov deyir ki, əvvəllər qəsəbə Badamlı kəndinin ərazisinə daxil imiş. Badamlı mineral bulağı ötən əsrin ortalarında aşkar edilmişdir. 1945-1947-ci illərdə geologiya-mineralogiya elmləri doktoru Əziz Əsgərovun rəhbərliyi altında ərazidə elmi-tədqiqat işləri aparılaraq burada dəniz səviyyəsindən 1274 metr hündürlükdə mineral su yatağı olduğu aşkarlanmış, müxtəlif kimyəvi tərkibli mineral sular sırasında 5 nömrəli bulaqdan istifadə edilməsi məqsədəuyğun hesab olunmuşdur. Suyun tərkibində yod, brom, mis, borat turşusu vardır. Badamlı iştahanı artıran, həzm prosesini yaxşılaşdıran, susuzluğu yatıran, gözəl süfrə suyu kimi məşhurdur. Bu su mədə-bağırsaq sisteminin, qaraciyər xəstəliklərinin müalicəsi üçün faydalıdır.

1947-ci ildə burada kiçik müəssisə yaradılaraq ilk dəfə əl üsulu ilə su istehsalına başlanılmışdır. Bu şəfqətli suyun sorağına gələnlər müəssisədə çalışmış, eyni zamanda iş yerlərinə yaxın olsun deyə, ərazidə özlərinə evlər də tikməyə başlamışlar. Müəssisənin fəaliyyəti genişləndikcə burada yaşayanların da sayı artmış, məskunlaşan insanlar həmin evləri genişləndirmiş, bağ-bağat salmışlar. 1961-1967-ci illər ərzində həmin müəssisədə işləyənlər üçün 6 yaşayış binası da inşa olunmuşdur. 2003-cü ilədək bura “Badamlısu” deyirdilər. Beləliklə, ötən əsrdə aşkarlanan mineral süfrə suyu və həmin suyun sorağı ilə əraziyə üz tutanlar bugünkü Badamlı qəsəbəsinin yaranmasına səbəb olmuşlar.

### *İctimai yaşayış binalarının təmiri ilə qəsəbənin hüsnünə yeni naxış vurulub*

Qəsəbədə hər birində 8 mənzil olmaqla, 6 ictimai yaşayış binası var. Ötən il həmin binaların əsaslı təmir olunması ilə bu yaşayış yerinin quruculuqla müasirləşən və gözəlləşən hüsnünə yeni bir naxış əlavə olunub. Binalardan 4-ü Naxçıvan şəhər, 2-si isə Babək Rayon Tikinti İdarəsi tərəfindən təmir edilib. Hər birinin dam örtüyü, qapı və pəncərələri dəyişdirilən, eyvanları genişləndirilən binalarda rabitə, qaz, elektrik xətləri, su və kanalizasiya sistemi yenilənib, mənzillərdə olan sayğaclar bloklarda yerləşdirilib. Binaların köhnə, miskin görkəminə bir qədər də səliqəsizlik qatan eyvanlara vurulmuş çanaq antenlər sökülüb, mərkəzləşdirilmiş antenlə əvəzləşdirilib. Həyətlərə su kranları qoyulub.

### *Yeni zavod binası qəsəbənin daha da inkişaf edəcəyindən xəbər verir*

Ulu Yaradanın bəxş etdiyi mineral su yataqları ilə dillər əzbəri Badamlı qəsəbəsində tikilən zavod binası ilə də tanış olduq. Mineral suların istehsalı üçün yaxın gələcəkdə burada “Badamlı” zavodu fəaliyyət göstərəcək ki, bu, ümumilikdə, muxtar respublikamızın iqtisadiyyatına xeyli gəlir gətirəcək. “Gəmiqaya” Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən inşa olunan tikintinin iş icraçısı Rauf Məmmədovla söhbətimiz zamanı o dedi ki, inşaatın ümumi ərazisi 15 min kvadratmetrdən artıq sahəni əhatə edir. Zavod binası həmin ərazinin 9754 kvadratmetrində inşa olunur ki, bu da muxtar respublikada tikilən ən böyük obyektlərdən biri deməkdir.

Binanın hər iki tərəfində daşıyıcı divarların beton-qəlib işləri görülüb, hündürlüyü 3 metr olan orta sütunlarda beton-qəlib işləri aparılıb, hazırda hörgü işləri həyata keçirilir.

Zavodda qazanxana, yeməkxana, yataqxana, mətbəx və laboratoriya da fəaliyyət göstərəcəkdir. Bu məqsədlə binaya paralel olan korpusda hörgü işləri başa çatdırılıb. Zavodun inzibati binasının birinci mərtəbəsində dəmir-qəlib-beton işləri yekunlaşdırılmaqdadır. Binanın arxa hissəsində hündürlüyü 5, uzunluğu 180 metr olan istinad divarı tikilib. Zavodun geniş həyəti də var, burada abadlıq işləri aparılacaq. Qəsəbənin hündür bir guşəsində tikilməkdə olan zavod binasının gələcək möhtəşəm görüntüsü indidən insanın gözləri önündə canlanır. Düşünürsən ki, bu görüntü qəsəbənin yeniləşən simasına daha bir müasir ünvan bəxş edəcəkdir.





### *Qəsəbədə fəaliyyət göstərən istehsal müəssisələri*

Günü-gündən inkişaf edən Badamlı qəsəbəsində iki istehsal müəssisəsi var. Bunlardan biri 2010-cu ildən fəaliyyət göstərən quşçuluq fərdi təsərrüfatıdır. Burada 2 bölmədə 30 min toyuq saxlanılır, hər gün 25 min yumurta istehsal olunur. Yüksək keyfiyyətə malik olan yumurta satışa çıxarılaraq alıcıların ehtiyacını ödəyir. Yaxın zamanda yerli yumurta istehsalı üçün quşların saxlanılmasına da başlanılacaq.

2014-cü ildən fəaliyyət göstərən çörək sexi nəinki Badamlı qəsəbəsinin, həmçinin yaxın kəndlərin də sakinlərinə xidmət edir. Burada hər gün 350-400 kiloqram unun çörəyi bişirilir. Sexdə tez-tez öz torpağında taxıl əkib-becərən, onu üyüdərək ailəsinin çörəyinin ununu əldə edən və bişirtdirmək üçün buraya üz tutan onlarla şahbuzluya rast gəlmək olur. Bu çörəyin ətri ətrafa yayılarkən ildən-ilə torpağa bağlananların, ruzisini alın təri ilə qazananların da sayı artır.

Hər iki istehsal müəssisəsində, ümumilikdə, 12 nəfər çalışır ki, bu da yaşadığı ərazidə bir o qədər insanın məşğulluğu deməkdir.

### *Yaşayış məntəqəsinin bu günü*

Qəsəbənin abadlaşdırılması, burada 2004-cü ildə 174 şagird yerlik məktəb binasının, 2009-cu ildə qəsəbə mərkəzinin tikilməsi, əhalinin fasiləsiz təbii qaz, elektrik enerjisi, müasir rabitə xidmətləri ilə təmin olunması onların yurd yerlərinə sevgisini daha da artırıb. Qəsəbədə əhalinin məşğuliyyəti, əsasən, əkinçilik və heyvandarlıqdır. Sakinlər iribuynuzlu, xırdabuynuzlu heyvan, arı ailəsi saxlayır, bağçılıq və əkinçiliklə məşğul olur, əldə edilən məhsulları bazarlara, yarmarkalara çıxararaq ailə büdcələrini təmin edir, həyat şəraitlərini yüksəldirlər.

Övladlarının hər cür şəraitlə təmin olunan məktəbdə təhsil aldığını, onların yüksək texnoloji vasitələrdən istifadəsini görən, zəngin kitabxana xidmətindən yararlanan, xəstəsini uzaq məsafə qət etmədən qəsəbədəki tibb məntəqəsində müalicə etdirə bilən, ailəsinin gündəlik tələbat mallarına olan ehtiyacını 5-10 metrlik məsafədə yerləşən mağazadan ödəyən, abad yollarla istədiyi yerə gedib-gələn qəsəbə sakinlərinin hər biri dövlət qayğısından minnətdarlıqla danışır. Qəsəbənin dünəni ilə bu günü arasındakı fərqi həyatlarının hər anında hiss edən əhali göstərilən qayğıya cavab olaraq çalışdıqları sahələrdə nizam-intizamlı, ictimai işlərdə fəal olmağa can atır. Onlar düşünürlər ki, yaşadıqları qəsəbənin hələ irəlidə bundan da xoş, firavan günləri var.

**Mətanət MƏMMƏDOVA**

*Tarixi şəxsiyyətlərimiz*

# Behbud ağa Şahtaxtinskinin yaradıcılığında təhsil məsələləri



***Azərbaycanın dövlətçilik tarixində Vətəninə, xalqına sonsuz məhəbbət və sədaqətlə fədakar və yorulmaz xidmət göstərmiş simalardan biri də Behbud ağa Şahtaxtinskidir. Yüksək intellektə, pak mənəviyyata malik olan Behbud ağa Şahtaxtinski görkəmli dövlət və siyasi xadim olmaqla yanaşı, eyni zamanda dövrünün qabaqcıl jurnalisti və publisisti kimi tanınmışdır. Onun bacarıqlı bir diplomat kimi Azərbaycan xalqı və xüsusən naxçıvanlılar qarşısında ən böyük və danılmaz xidməti sovet hakimiyyətinin ilk illərində ölkəmizin tarixi torpaqlarını qorumaqla Azərbaycanın tərkibində Naxçıvan diyarına muxtariyyət qazandıran Moskva və Qars müqavilələrinin bağlanmasını müvəffəqiyyətlə başa çatdırması olmuşdur. Bu müqavilələr nəticəsində erməni fitnəkarlarının Naxçıvana uzanan əlləri kəsilmişdir.***

Çoxcəhətli fəaliyyətə malik olan Behbud ağa Şahtaxtinski görkəmli dövlət xadimi, mahir diplomat olmaqdan başqa böyük publisist idi. O, mətbuat orqanlarının yaranmasına xüsusi diqqət yetirmiş, mətbuatı ictimai həyatda ən yaxşı təkanverici qüvvə kimi qiymətləndirmişdir. XX əsrin əvvəllərində “Nicat” qəzetində, “Azərbaycan” qəzetinin rusca əlavələrində və sair mətbuat orqanlarında əhəmiyyətli məqalələrlə çıxış etmişdir. Behbud ağa Şahtaxtinski Azərbaycan mətbuat tarixinə rusdilli “Balaban” satirik jurnalının yaradıcısı kimi də daxil olmuşdur. O, 1912-1913-cü illərdə İsabəy Aşurbəylinin mətbəəsində çap edilən “Balaban” adlı həftəlik jurnalın redaktorluğu vəzifəsini həyata keçirmişdir. Bu jurnalda Azərbaycanda yaşayan rusiyalıların və rusdilli yerli müəlliflərin gizli imzalarla satirik üslublu məqalələri və eləcə də özünün yazdığı məqalələr çap olunurdu. Bu jurnal qısa vaxtda nəşrini dayandırmasına baxmayaraq, Azərbaycan mətbuatında dərin iz buraxmışdır.

Behbud ağa Şahtaxtinskinin məqalələrində xalqın maariflənməsi, cəhalətdən çıxması mövzusu xüsusi yer tutur və bu kontekstdə ruhanilərin cəmiyyətdəki rolu barədə fikirlərini oxucu ilə bölüşür. Görkəmli ziyalıya görə, müsəlman cəhaləti ilə mübarizə aparmaq müsəlman ruhanilərinə qarşı kampaniya aparmaq deməkdir ki, bu da təbiidir. Çünki həyatımızda ruhaniliyin üstün rolu cəhalətimizlə sıx bağlıdır.

O göstərirdi ki, ruhanilər tərəfindən müsəlmanların oyanışına vurulan öldürücü zərbələrin qarşısını almaq üçün Qafqaz müsəlmanlarına Qafqazda iki yaxşı ruhani seminariyasının olması vacibdir. Bu seminariyanın əhəmiyyətini qeyd edən müəllif yazırdı ki, bizim ruhanilər müsəlmanların oyanışı tərəfdarı olduqda cəhalətin öhdəsindən gəlmək çətin olmayacaq. Çünki mollaların əks-təsiri aradan götürüldükdə elə həmin müsəlman kütlələrin öz vəsaitləri hesabına onların məskunlaşdığı bütün yerlərdə ümumi açıq xalq məktəbləri şəbəkəsi yaratmaq olar. Xalq kütlələrinin təhsili və maarifinin güclü təsiri altında cəhalətimiz bizi tərk edə bilər. Müəllif bunun xalqın tərəqqipərvər ziyalılarının birgə fəaliyyətindən asılı olduğunu göstərir və təəssüflə qeyd edirdi ki, bütün bədbəxtçiliyimizin səbəbi bizim bu işi vaxtında görməməyimizdir.

Xalqın maariflənməsi istiqamətində onun qadınlarla bağlı fikirləri də maraq doğurur. 1917-ci ildə “Kaspi” qəzetində dərc olunmuş bir məqaləsində Behbud ağa Şahtaxtinski uşaqların həqiqi tərbiyəçisinin yalnız ətraf aləmin şəraiti barədə kifayət qədər məlumata malik ana ola biləcəyini göstərirdi. O, müsəlman qadınının tərəqqisini cəmiyyətin binövrəsi hesab edirdi. Təhsil, elm və mədəniyyətin millət və xalqın ən çətin dövrlərində belə vacib olduğunu qeyd edən Behbud ağa Şahtaxtinski yazırdı: “Mənəvi intellektual və elmi qüvvələrə malik olan millət xarici təsirlər altında zorla cəlb edildiyi müharibə çətinliklərinə və şəraitinə belə, asanlıqla uyğunlaşa bilir. Döyüş meydanlarında həmişə mədəniyyət və elmin yaratdığı texnika qarşısında baş əyməyə layiq olan igidlik və elmi qəhrəmanlıq qələbə çalır”. “Həyatın əks-sədaları” adlı məqaləsində yazırdı: “Özünəməxsus mədəniyyəti olmayan millət müstəqil ola bilməz”.

Behbud ağa Şahtaxtinski yaxşı bilirdi ki, həyatın sərvətlərini köhnəlmiş keçmişin çərçivəsinə yığmaq olmaz. İndi vəziyyət elə gətirib ki, əgər tərbiyə və təhsil işi lazımi qədər yüksəkliyə qalxmasa, bizim xalqın nəinki siyasi, hətta fiziki varlığı da şübhə altına alına bilər.

Xalqın siyasi şüurunun, vətənpərvərlik hissinin inkişaf etdirilməsini və xalqın özünü dərk etməsinin yollarından bəhs edərkən Nəriman Nərimanovun “bir millət özünü tanımayınca hüququnu düşünməz, tanınmaq üçün milli dil, milli məktəb, milli mətbuat, milli ədəbiyyat lazımdır” deyimini öz fəaliyyətinin əsas istiqaməti kimi qəbul etmişdir.

Cəmi 43 il ömür yaşayan bu görkəmli şəxsiyyətin həyatında elə hadisələr olmuşdur ki, onlar bəzən birmənalı qiymətləndirilmir. Tarixi hadisələri təkcə zamana görə yox, zamandakı vəziyyətə görə qiymətləndirmək lazımdır.

Görkəmli dövlət xadimi və böyük diplomat Behbud ağa Şahtaxtinskiyə yenidən qayıdış baxımından Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun “Behbud ağa Şahtaxtinskinin 130 illik yubileyinin keçirilməsi haqqında” 2011-ci il 21 fevral tarixli Sərəncamı xüsusi əhəmiyyət kəsb edir. Bu, tarixi şəxsiyyətin zəngin həyat yolunu işıqlandırmağa geniş imkanlar açdı. Sərəncamda deyilir: *“Azərbaycanın ictimai-siyasi həyatında, diplomatiya və dövlətçilik tarixində özünəməxsus yeri və rolu olan Behbud ağa Şahtaxtinski gənc yaşlarından ictimai fəaliyyətə başlamış, 1905-1907-ci illərdə Bakıya kontor qulluqçuları ittifaqının yaradılmasında və mühitində cərəyan edən proseslərin, eyni zamanda mürəkkəb tarixi şəraitin təsiri altında formalaşan Behbud ağa Şahtaxtinski bir müddət jurnalist və publisist kimi fəaliyyət göstərmiş, mətbuatda xalqı narahat edən problemlərə toxunmuş, onların ictimai müzakirəsinə nail olmağa çalışmışdır”.*

Sərəncama əsasən Behbud ağa Şahtaxtinskinin 130 illiyi ilə əlaqədar yubiley tədbiri təşkil edilmiş, siyasi, diplomatik və publisistik fəaliyyəti ilə bağlı arxiv sənədləri araşdırılmış və toplu şəklində nəşr olunmuş, “Naxçıvan” ictimai-siyasi, ədəbi-bədii, elmi-publisistik jurnalının bir nömrəsi Behbud ağa Şahtaxtinskiyə həsr edilmiş, onun həyat və fəaliyyəti ilə bağlı elmi konfrans keçirilmiş, görkəmli dövlət xadiminin 130 illiyi ilə əlaqədar tematik verilişlər və qəzet materialları hazırlanmışdır. Ötən dövrdə “Behbud ağa Şahtaxtinski: sənədlər və materiallar kitabı” çapdan çıxmış, bu qiymətli nəşrin Naxçıvan ictimaiyyətinə təqdimat mərasimi keçirilmişdir.

Bu gün qürur hissi ilə qeyd etmək lazımdır ki, Behbud ağa Şahtaxtinskinin təhsillə bağlı arzuları Naxçıvan Muxtar Respublikasında gerçəkləşməkdədir. Strateji sahə kimi təhsilə göstərilən dövlət qayğısının ifadəsidir ki, 20 ildən bir qədər artıq zaman kəsiyində qədim diyarımızda təhsilin inkişafı əsas vəzifələrdən biri kimi qarşıya qoyulub. Bu dövrdə muxtar respublikanın şəhər, qəsəbə və kəndlərində 300-dən çox təhsil müəssisəsi tikilərək və ya yenidən qurularaq istifadəyə verilib. Muxtar respublikanın ən ucqar dağ kəndində tikilən məktəb binası ilə Naxçıvan şəhərində inşa olunan təhsil ocağı arasında heç bir fərq yoxdur.

Türkiyənin tanınmış alimlərindən professor İbrahim Ethem Atnur Naxçıvanda olarkən Şahbuz rayonunun Biçənək kəndində gördüyü məktəb binası barədə təəssüratlarını sosial şəbəkələrdə belə paylaşmışdı: “Naxçıvanın ucqar bir dağ kəndində əzəmətli bir bina gördüm. Mənə dedilər ki, bura məktəb binasıdır. Heyrətləndim. Gəzdiyim ölkələrin heç birində ucqar dağ kəndində belə məktəb binası görməmişdim. O məktəb binası bəzi Avropa ölkələrindəki universitet binalarından daha sanballı idi. Bu, öz xalqının təhsilli gələcəyini düşünən insanların Vətəninə böyük xidmətidir. Naxçıvan blokadaya baxmayaraq, sürətlə inkişaf edib. Orada 50 ilə görüləcək işlər 15-20 ildə görülüb”.

Naxçıvanda təhsilin orta, orta ixtisas və ali təhsil pillələrinin inkişafı istiqamətində görülən işlər, tikilən məktəb binaları, yaradılan müasir universitet şəhərcikləri Azərbaycanın xoşbəxt gələcəyinə xidmət edir. Təhsil sahəsinə göstərilən böyük diqqət və qayğının nəticəsidir ki, bu gün Tivi, Ləkətağ, Şada, Havuş və digər ucqar dağ və sərhəd kəndlərindəki müasir məktəb binalarında təhsil alan şagirdlər ən son model kompüter texnologiyalarından istifadə edərək internet vasitəsilə dünyaya səyahət edir, ali məktəb müəllimləri və tələbələri isə heç bir çətinlik çəkmədən dünyanın ən qabaqcıl ölkələrinin universitetləri ilə videokonfrans əlaqəsi yaradırlar.

*Fikrimi ulu öndərimiz Heydər Əliyevin sözləri ilə bitirmək istəyirəm:* ***“Hansı partiyaya, hansı siyasi qüvvəyə mənsubiyyətindən asılı olmayaraq, kim Azərbaycan milli mənafelərinin keşiyində durubsa, ona xidmət göstəribsə, o insanlar bizim tariximizdə həmişə hörmətlə yada salınmalıdır və tariximizə daxil olmalıdır”.***

**Namiq MƏMMƏDOV**
***Heydər Əliyev adına tam orta məktəbin direktoru***

***Naxçıvan Dövlət Universitetində “Azərbaycan folklorunda Novruz” mövzusunda elmi-nəzəri seminar keçirilib.***

# “Azərbaycan folklorunda Novruz” mövzusunda elmi-nəzəri seminar



Seminarı giriş sözü ilə açan universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov bayram münasibətilə müəllim və tələbələri təbrik edib, milli-mənəvi dəyərlərimiz və onlar içərisində xüsusi yeri olan Novruz bayramı haqqında danışıb. Vurğulanıb ki, ümummilli lider Heydər Əliyevin təşəbbüsünün nəticəsi olaraq ölkəmizdə illərdir Novruz bayramı geniş şəkildə – rəsmi dövlət bayramı kimi qeyd edilir.

“Naxçıvan folkloru və Novruz adət-ənənələri” mövzusunda filologiya üzrə fəlsəfə doktoru, dosent Sədaqət Nemətova bayramın xalqımız üçün tarixi və mədəni əhəmiyyətindən danışaraq bildirib ki, əsrlər boyu Azərbaycan xalqı bu bayramı qeyd edib, milli adət-ənənələri öz qəlbində yaşadıb.

“Folklorda Novruz çərşənbələri” mövzusunda çıxış edən filologiya üzrə fəlsəfə doktoru Aytən Cəfərova Novruz bayramının atributlarından sayılan çərşənbələrdən danışıb.

Bildirib ki, kiçik çillə ilə Novruz arasındakı Boz ay qışdan yaza keçid dövrüdür. Xalq arasında bu aya bayram ayı da deyilir. Azərbaycanın ən qədim yaşayış məskəni olan Naxçıvanda çərşənbələr su-torpaq-yel-od ardıcıllığı ilə qeyd edilir.

Elmi-nəzəri seminar diskussiya şəklində davam edib. Sonda Tarix-filologiya fakültəsi tələbələrinin Novruz bayramı münasibətilə səsləndirdikləri şeirlər dinlənilib.

**Səadət ƏLİYEVA**

# “Kimyəvi reaksiyaların sürəti. Tarazlıq” mövzusunda açıq dərs təşkil olunub

*AMEA Naxçıvan Bölməsi və Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin birgə təşkilatçılığı ilə “Kimyəvi reaksiyaların sürəti. Tarazlıq” mövzusunda növbəti interaktiv açıq dərs keçilib.*

Bölmənin Təbii Ehtiyatlar İnstitutunun Mineral xammalın kimyası və texnologiyası laboratoriyasının şöbə müdiri, kimya üzrə fəlsəfə doktoru, dosent Qorxmaz Hüseynovun apardığı dərsdə aktivləşmə enerjisi, reaksiyanın sürətinin hesablanması və bu prosesə təsir edən amillər, kimyəvi tarazlıq və ona təsir edən amillər barəsində şagirdlərə ətraflı məlumat verilib.

Qorxmaz Hüseynov maddələrin bir-biri ilə molekullarındakı atomlar arasında kimyəvi rabitələrin qırılması və ya zəifləməsi halında reaksiyaya girdiklərini deyib. O, bu rabitələrin qırılması və ya zəifləməsi üçün müəyyən qədər enerji tələb olunduğunu söyləyib.

Reaksiyanın sürətinə təsir edən amillərdən də danışan alim bildirib ki, reaksiya aktiv maddələrin iştirakı ilə böyük, passiv maddələrin iştirakı ilə isə zəif sürətlə gedir.

Dərs zamanı videoslayd vasitəsilə kimyəvi tarazlığın izahlı testləri şagirdlərin diqqətinə çatdırılıb.

***AMEA Naxçıvan Bölməsinin İnformasiya şöbəsi***

# *“İslam dini və milli-mənəvi dəyərlərimiz: adət-ənənələr”* mövzusunda dəyirmi masa keçirilib



Martın 14-də Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı ilə Naxçıvan Şəhər Uşaq Musiqi və İncəsənət Məktəbində “İslam dini və milli-mənəvi dəyərlərimiz: adət-ənənələr” mövzusunda dəyirmi masa keçirilib.

Nazirliyin təhsil müəssisələri ilə iş üzrə baş məsləhətçisi Kənan Tağızadə çıxış edərək bildirib ki, 2009-cu il oktyabrın 14-də Bakıda keçirilən İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin mədəniyyət nazirlərinin IV konfransında Naxçıvan şəhəri 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı elan olunub. Keçirilən dəyirmi masanın məqsədi gəncləri İslam mədəniyyəti və dəyərləri ilə tanış etmək və onları maarifləndirməkdir.

Qeyd edilib ki, dünyada bir çox böyük dinlər mövcuddur. Hər dinin özünəməxsus yeri var. Biz azərbaycanlılar heç vaxt başqa dinlərə qarşı mənfi münasibət göstərməmişik, düşmənçilik, ədavət aparmamışıq. Ümumiyyətlə, başqa dinlərə dözümlülük, qarşılıqlı anlaşma şəraitində yaşamaq islami dəyərlərin xüsusiyyətidir. Təsadüfi deyil ki, Azərbaycanda İslam dini ilə yanaşı, xristian dini və digər dinlər əsrlər boyu birgə yaşayıb və indi də yaşayırlar.

Sonra mövzu ilə bağlı Naxçıvan Muxtar Respublikası Bəstəkarlar Təşkilatının sədri, Naxçıvan Muxtar Respublikasının Əməkdar incəsənət xadimi Yaşar Xəlilov, Naxçıvan Dövlət Tarix Muzeyinin direktoru, Naxçıvan Muxtar Respublikasının Əməkdar mədəniyyət işçisi Nizami Rəhimov, Bəhruz Kəngərli Muzeyinin direktoru Səbinə Əlincəli, Naxçıvan Dövlət Xalça Muzeyinin direktoru Zəminə Gülməmmədova, Mədəniyyət üzrə Elmi-Metodik Mərkəzin direktoru Səyyar Məmmədov, Naxçıvan Turizm İnformasiya Mərkəzinin direktoru Gülnarə Sadiqova, Naxçıvan Dövlət Film Fondunun direktoru Mirakif Seyidov çıxış ediblər.

Çıxışlarda bildirilib ki, muxtar respublikamızda islami dəyərlərə ehtiramla yanaşılır. Bu dəyərlərə ehtiram dini bayramların yüksək səviyyədə keçirilməsində də özünü göstərir. Hər il keçirilən Qurban və Ramazan bayramları insanlara ədalət və mərhəmət, şəfqət və xeyirxahlıq duyğuları təlqin etməklə, onların mənən saflaşması, Vətən və xalq üçün birləşməsinə xidmət edir. Bu birlik cəmiyyətimiz və dövlətimiz üçün olduqca mühüm amildir.

Vurğulanıb ki, muxtar respublikamızda dini dəyərlərimizin qorunub yaşadılması istiqamətində həyata keçirilən tədbirlər hər kəs tərəfindən rəğbətlə qarşılanır. Ziyarətgahlar bərpa olunur, yeni məscidlər tikilir, dindarlar üçün lazımi şərait yaradılır. Son illər yeni tikilən məscidlər, təmir olunan İslam mədəniyyəti abidələri dövlətin bu sahəyə xüsusi diqqət və qayğı göstərməsinin bariz nümunəsidir.

**Əli RZAYEV**

# Qayğı və inam işığında

***Elə insanlar var ki, onların həyat yolu, mübarizə əzmi çoxlarına örnəkdir. Taleyin tuş gəldiyi maneələrə baxmayaraq, sağlamlıq imkanları məhdud olan belə insanlarla söhbətləşdikcə, onları yaxından tanıdıqca bacarıq və istedadın heç bir sərhədə sığmadığının şahidi olursan. Qəlbi həyat eşqi ilə döyünən belə insanlarımız muxtar respublikamızda onlar üçün yaradılmış şəraitdən lazımınca istifadə edir, öz bilik və bacarıqlarını, istedadlarını həyatın müxtəlif sahələrində sınayırlar. Bu gün muxtar respublikamızda ədəbi yaradıcılıqda, incəsənətin müxtəlif sahələrində öz sözünü deməyi bacaran onlarla sağlamlıq imkanları məhdud insanlar var. Biz isə bu yazıda məhz bu cür istedadlı insanları bir kollektivdə birləşdirən "İnam" musiqi qrupu haqqında söhbət açacağıq.***

Qeyd edək ki, "İnam" musiqi qrupu ölkəmizdə ilk dəfə olaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığına əsasən 2011-ci ildə yaradılan sağlamlıq imkanları məhdud ifaçılardan ibarət musiqi qrupudur. Qrupun yaradılmasında məqsəd bu qəbildən olan insanların istedad və bacarıqlarının təbliğ edilməsi, onların cəmiyyətə inteqrasiyasının təmin olunmasıdır. Ansamblın bədii rəhbəri Əkbər Əliyev bizimlə söhbətində bildirdi ki, hazırda ansamblın 9 üzvü var. Müasir texniki avadanlıqlarla təmin olunan qrup üzvləri tar, kamança, saz, qanun, ud, zərb alətlərində ifa edirlər. Ansamblda müğənni kimi fəaliyyət göstərən Məhəmməd Əliyevin sözlərinə görə, onların ilk konserti Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzində baş tutub. Artıq 7 ildir, fəaliyyətdə olan qrup muxtar respublikada keçirilən mədəni-kütləvi tədbirlərdə fəallıq göstərir, keçirilən bayram tədbirlərində Ahıllar evində, əsgərlər qarşısında konsert proqramları ilə çıxış edirlər. Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən hər ay təşkil olunan konsert proqramlarında ansamblın üzvlərinə nazirlik tərəfindən müəyyən məvacib ödənilir. Fiziki məhdudiyyətlərinə baxmayaraq, sənətə böyük məhəbbətlə bağlanan üzvlərin Regional İnformasiya Mərkəzində onlar üçün ayrılan məşq zalı var ki, hər dəfə konsert proqramından öncə burada məşq edirlər.

Növbəti məşq prosesi zamanı "İnam" musiqi qrupunun üzvlərindən tar ifaçısı Sənan Salmanovla tanış olduq. 1969-cu ildə Ordubad rayonunun Unus kəndində anadan olan Sənan müəllim hazırda ansamblda konsertmeyster kimi fəaliyyət göstərir. Qaranlıq dünyanın onu üz-üzə buraxdığı məhdudiyyətlərlə heç zaman barışmayan həmsöhbətimiz bildirdi ki, zamanla qarşısına müəyyən məqsədlər qoyub və həyatdan ümidini heç zaman üzməyib. Heç bir əngəlin onu arzularından məhrum edə bilməyəcəyini düşünən Sənan Salmanov Bakı şəhərində fəaliyyət göstərən gözdən əlillər üçün internat məktəbində orta təhsilini başa vurub. Hələ uşaq yaşlarından həssas musiqi duyumu olan Sənan Salmanov Bakı Şəhər Musiqi Kollecinə daxil olub və bu məktəbi müvəffəqiyyətlə bitirib. O, bununla kifayətlənməyib, Naxçıvan Dövlət Konservatoriyasında təhsilin daha bir pilləsinə qədəm qoyub. Konservatoriyanı bitirdikdən sonra Naxçıvan şəhər Ərtoğrol Cavid adına Uşaq Musiqi və Bədii Sənətkarlıq Məktəbində həm də pedaqoji fəaliyyətlə məşğuldur. Hazırda həm müəllim, həm də musiqi qrupunun konsertmeysteri kimi çalışan Sənan Salmanov dünənin ağrılı-acılı günlərini xatırlayarkən kədərlənsə də, bu günün xoş təəssüratlarını bizimlə bölüşərkən üzündəki xoşbəxt təbəssümü sezməmək olmur. Onun dediklərindən: "O zamanlar bu kateqoriyadan olan insanlar taleyin onlara qismət etdiyi bu cür ağır sınağın çətinliklərinə boyun əyib, həyata küskün, diqqətdənkənar, ümidsiz, qayğısız ömür yaşamağa məcbur olurdular. Ancaq bu gün dövlətimiz belə insanları çarəsizliyin məngənəsində sıxılmağa qoymur. Onların sosial şəraitinin yaxşılaşdırılması, məşğulluq imkanlarının yüksəldilməsi yönündə muxtar respublikamızda davamlı işlər aparılır, cəmiyyətə inteqrasiyaları, reabilitasiyaları üçün lazımi şərait yaradılır".



1990-cı ildə ailə həyatı quran Sənan müəllim deyir ki, bir vaxtlar Naxçıvan şəhərində yerləşən Gözdən Əlillər Cəmiyyətinə məxsus olan kiçik yataqxana var idi. 25 nəfərlik gözdən əlil ailəni təmsil edən yataqxanada ailəmlə birlikdə çox çətinliklərə sinə gərdik. Lakin bu ağır sınaqların üstündən çox keçmədi ki, mənim kimi neçə-neçə kövrək ürəklərə həmdəm olan dövlətimiz həyatımıza xoş ovqat bəxş etdi. Əlillər üçün tikilən evlə təmin olunduq. Bu hələ bizim üçün yaradılan qayğının kiçik bir hissəsidir. Bu gün dövlətimiz tərəfindən daim diqqət mərkəzində olmaq bizi həyata daha sıx tellərlə bağlayır, mübarizə əzmimizi artırır.

Bəli, həyatda sağlam yaşamaq hər kəsin qismətində olmur. Bəziləri dünyaya göz açarkən, bəziləri isə sonradan bədbəxt hadisələr nəticəsində sağlamlıqlarından məhrum olur. Ancaq dövlətimizin bu qəbildən olan insanlara qayğıkeş münasibəti nəticəsində onların yaşamaq, qurub-yaratmaq əzminin nə qədər yüksək olduğunu görməmək mümkün deyil. Bu isə Sənan Salmanov kimi neçə-neçə insanların simasında "İnam" qrupunun bütün üzvlərinin sabaha olan inamını daha da artırır.

**Gülcamal TAHİROVA**

## Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzi tərəfindən 16 aprel 2018-ci il tarixdə açıq hərraca çıxarılacaq əmlaklar haqqında məlumat

| Sıra №-si | Hərraca çıxarılacaq əmlak | Əmlakın hüquqi ünvanı | Əmlakın ilkin satış qiyməti (manat) | Əmlakın 15% güzəştli satış qiyməti (manat) | İlkin satış qiymətinin 5 faiz həcmində hesablanmış behin məbləği (manat) |
|---|---|---|---|---|---|
| 1. | 3193 kvadratmetr torpaq sahəsində yerləşən 1 mərtəbəli, 4 otaqlı, 59,94 kvadratmetri yaşayış, 59,89 kvadratmetri köməkçi sahədən ibarət fərdi yaşayış evi | Babək rayonu, Badaşqan kəndi | 37 000 | 31 450 | 1 850 |
| 2. | 1488 kvadratmetr torpaq sahəsində yerləşən 1 mərtəbəli, 2 otaqlı, 33,6 kvadratmetri yaşayış, 23 kvadratmetri köməkçi sahədən ibarət 8 nömrəli fərdi yaşayış evi | Şərur şəhəri, Hüseyn Cavid küçəsi | 35 300 | 30 005 | 1 765 |
| 3. | 1952 kvadratmetr torpaq sahəsində yerləşən 1 mərtəbəli, 4 otaqlı, 97,63 kvadratmetri yaşayış, 46,64 kvadratmetri köməkçi sahədən ibarət fərdi yaşayış evi | Şərur rayonu, Zeyvə kəndi | 34 900 | 29 665 | 1 745 |
| 4. | 1083 kvadratmetr torpaq sahəsində yerləşən 1 mərtəbəli, 3 otaqlı, 71,80 kvadratmetri yaşayış, 21,60 kvadratmetri qeyri-yaşayış, 41,04 kvadratmetri köməkçi sahədən ibarət fərdi yaşayış evi | Şərur rayonu, Siyaqut kəndi | 29 100 | 24 735 | 1 455 |
| 5. | 128,25 kvadratmetri ümumi, 1 mərtəbəli, 3 otaqlı, 81,00 kvadratmetri yaşayış, 47,25 kvadratmetri köməkçi sahədən ibarət fərdi yaşayış evi | Şərur rayonu, Siyaqut kəndi | 28 200 | 23 970 | 1 410 |
| 6. | 900,0 kvadratmetr torpaq sahəsində yerləşən 1 mərtəbəli, 2 otaqlı, 48,6 kvadratmetri yaşayış, 186,32 kvadratmetri qeyri-yaşayış, 10,5 kvadratmetri köməkçi sahədən ibarət fərdi yaşayış evi | Şərur rayonu, Məmmədsabir kəndi | 25 000 | 21 250 | 1 250 |
| 7. | 1522,3 kvadratmetr torpaq sahəsində yerləşən 1 mərtəbəli, 3 otaqlı, 249,2 kvadratmetri yaşayış sahədən ibarət fərdi yaşayış evi | Şərur rayonu, Qarahəsənli kəndi | 21 000 | 17 850 | 1 050 |
| 8. | 5325 kvadratmetr torpaq sahəsində yerləşən 1 mərtəbəli, 3 otaqlı, 67,66 kvadratmetri yaşayış, 16,81 kvadratmetri köməkçi sahədən ibarət fərdi yaşayış evi | Şərur rayonu, Siyaqut kəndi | 19 200 | 16 320 | 960 |
| 9. | 1984 kvadratmetr torpaq sahəsində yerləşən 1 mərtəbəli, 2 otaqlı, 47,04 kvadratmetri yaşayış, 21,6 kvadratmetri köməkçi sahədən ibarət fərdi yaşayış evi | Babək rayonu, Cəhri kəndi | 12 000 | 10 200 | 600 |

Hərracda qanunvericiliyə müvafiq olaraq alıcı hesab edilən, sifarişi və digər zəruri sənədləri təqdim etmiş hüquqi və fiziki şəxslər iştirak edə bilərlər. Hərraca çıxarılan əmlakın ilkin satış qiymətinin 5 faiz məbləğində beh Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsindəki İcra Məmurlarının Xüsusi Vəsaitlər Fonduna 13 aprel 2018-ci il tarixədək ödənilməlidir.

Hərraclarda iştiraka görə hərrac iştirakçılarından qanunvericilikdə müəyyən edilmiş iştirak haqqı Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsindəki AZ21NABZ12360100000000005944 nömrəli hesabına köçürülür.

Sifarişlər Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində (Atatürk 42) qəbul olunacaqdır. Məlumat dərc olunduğu vaxtdan auksionda iştirak etmək arzusunda olan hüquqi və fiziki şəxslər satışa çıxarılan əmlakların sənədləri ilə Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində tanış ola bilərlər.

Auksionda iştirak etmək üçün aşağıdakı sənədlər təqdim olunur:

- *Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzi tərəfindən təsdiq edilmiş formada sifariş;*
- *ödəniləcək behin qəbzi;*
- *hüquqi şəxslər üçün təsis sənədlərinin müəyyən olunmuş qaydada təsdiq edilmiş surəti;*
- *fiziki şəxslər üçün şəxsiyyəti təsdiq edən sənədin surəti.*

Hərrac 16 aprel 2018-ci il tarixdə saat $11^{00}$-da Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində keçiriləcək.

***Əlavə məlumatı Auksion Mərkəzindən ala bilərsiniz.***

***Əlaqə telefonu: 545-01-38***

11 aprel 2018-ci il tarixdə keçiriləcək Azərbaycan Respublikası Prezidentinin seçkiləri ilə əlaqədar olaraq seçkiqabağı təşviqatın aparılması 19 mart 2018-ci il tarixdə başlanır və 2018-ci il aprelin 10-u saat $8^{00}$-da dayandırılır.

Aşağıda qeyd olunan yerlər Azərbaycan Respublikasında keçiriləcək Prezident seçkiləri ilə əlaqədar olaraq açıq və qapalı yerlər kimi müəyyən olunmuşdur.

| | |
|---|---|
| **Naxçıvan şəhərində**<br>Açıq yer – Naxçıvan Şəhər Stadionu<br>Qapalı yer – "Gənclik" Mərkəzi | **Şərur rayonunda**<br>Açıq yer – Şərur Rayon Mədəniyyət Evinin qarşısı<br>Qapalı yer – "Bahar" kinoteatrı |
| **Babək rayonunda**<br>Açıq yer – Babək Rayon Tarix-Diyarşünaslıq Muzeyinin qarşısı<br>Qapalı yer – Babək qəsəbə 1 nömrəli tam orta məktəbin akt zalı | **Ordubad rayonunda**<br>Açıq yer – Ordubad Şəhər Tədbirlər Meydanı<br>Qapalı yer – Ordubad Rayon Mədəniyyət Evi |
| **Culfa rayonunda**<br>Açıq yer – Culfa Şəhər Stadionu<br>Qapalı yer – Culfa Rayon Mədəniyyət Evi | **Kəngərli rayonunda**<br>Açıq yer – Qıvraq Qəsəbə Stadionu<br>Qapalı yer – Kəngərli Rayon Mədəniyyət Evi |
| **Şahbuz rayonunda**<br>Açıq yer – Şahbuz Şəhər Stadionu<br>Qapalı yer – "Araz" kinoteatrı | **Sədərək rayonunda**<br>Açıq yer – Sədərək Rayon Mədəniyyət Evinin qarşısı<br>Qapalı yer – Sədərək Rayon Mədəniyyət Evi |

## Muxtar respublikada epidemioloji vəziyyət sabitdir

***Muxtar respublikamızda fevral ayında infeksiya ocaqlarında profilaktik və epidemiya əleyhinə tədbirlər həyata keçirilib. Yeni doğulmuş uşaqların 294 nəfəri idarəolunan yoluxucu xəstəliklərə görə BSJ, hepatit B, poliomielit peyvəndi alıb. Ay ərzində aşkar olunan hepatit xəstəliklərinə qarşı müvafiq profilaktik tədbirlər görülüb. Yoluxma mənbələri müəyyənləşdirilib və səhiyyə maarifi işi aparılıb.***

Fevral ayı ərzində bakterioloji laboratoriya fəaliyyətini davam etdirib. 74 su, 19 yuyuntu və 1232 digər nümunələrin müayinələri aparılıb. Obliqat qrupların bakterioloji müayinələri diqqət mərkəzində saxlanılıb, səhiyyə üzrə 202, təhsil üzrə 809, qidalanma sənayesi, ictimai iaşə və ticarət üzrə 127, kommunal sahələr üzrə 49, sürücülük üzrə 6 nəfər müayinədən keçib.

Sanitariya-kimyəvi laboratoriyalar şöbəsinin qidalanma gigiyenası laboratoriyasında 2 nümunədə 7 müayinə aparılıb, o cümlədən yerli istehsal olan xörək duzu nümunələrində yodun norma daxilində olduğu, həmçinin dəmir preparatı ilə unun zənginləşdirilməsinə görə 1 un nümunəsində bəsit elektrolit dəmir preparatlarının tələbata uyğunluğu aşkar edilib.

Kommunal gigiyena laboratoriyasında 9 nümunədə 21 müayinə, toksikoloji, xarici mühit və ərzaq məhsullarında zəhərli kimyəvi maddələrin qalıq miqdarının təyini laboratoriyasında 12 nümunədə 60 müayinə aparılıb.

Əhalinin sanitariya sahəsində maarifləndirilməsi məqsədyönlü şəkildə həyata keçirilib, 39 mühazirə oxunub. İstehsalatda baş verən bədbəxt hadisələr və onların aradan qaldırılması sahəsində görülən tədbirlər davam etdirilib, əlaqədar tikinti və inşaat obyektlərində nəzarət yoxlamaları aparılıb.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

### *İtmişdir*

Naxçıvan şəhəri, "20 Yanvar" küçəsi, ev 17-də yaşamış Orucəliyev Elşad İman oğlunun adına olan 2615 inventar nömrəli texniki pasport və MH-0032551 nömrəli çıxarış itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, Şəhriyar küçəsi, döngə 6, ev 7-də qeydiyyatda olan Mirzəyev Rahid Xəlil oğlunun adına olan 724 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Muxtar Məmmədov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1490. Sifariş № 219